Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Azərbaycan insan hüquqlarının yüksək şəkildə qorunduğu ölkələr cərgəsindədir

## İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması

**Müasir şəraitdə insan hüquqlarının müdafiəsi ümumbəşəri maraq və dəyərlərin prioriteti omaqla sosial tərəqqinin də əsaslarından birinə çevrilib. İnsan hüquqlarının təmin edilməsinin hüquqi mexanizminin strukturuna müvafiq normaların təsbit edilməsi, subyektiv hüquqların həyata keçirilməsinin sərhədlərinin və üsullarının müəyyən olunması, hüquqların məhdudlaşdırılması qaydalarının təsdiqi, onların həyata keçirilməsi üsullarının fərqləndirilməsi kimi mühüm məqamlar daxildir.**



Bundan başqa, hüquqların müdafiəsi prosedurlarının müəyyən edilməsi, pozulmuş hüquqların bərpasının formaları və miqyası, vurulmuş zərərin ödənilməsi, eləcə də hüquqların mümkün pozulmasının qarşısının alınması da burada ön planda yer alır.

**İnsan hüquqları sahəsində beynəlxalq qanunvericiliyin tələbləri nəzərə alınır**

Azərbaycan Konstitusiyasında təsbit olunmuş insan hüquq və azadlıqları Ümumdünya İnsan Hüquqları Bəyannaməsində, İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında Beynəlxalq Paktda, Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktda təsbit edilmiş ümumi qəbul edilmiş standartlara uyğundur. İnsan hüquq və azadlıqlarının müdafiəsi müasir dövlətin konstitusiya hüquqi və beynəlxalq hüquqi öhdəliyi olmaqla, bu məqsədlər üçün nəzərdə tutulmuş prinsiplər sisteminin köməyi ilə həyata keçirilir. Burada onu da qeyd edək ki, beynəlxalq hüquqda insan hüquqlarını təsdiqləyən ən möhtəbər sənəd Ümumdünya İnsan Hüquqları Bəyannaməsidir. Bəyannamədə deyilir: "Hər bir insan onun mənsub olduğu irqindən, cinsindən, dilindən, dinindən, siyasi və digər baxışlarından, milli və sosial mənşəyindən, mülkiyyətindən, doğum və digər hallarından asılı olmayaraq təmin olunmuş insan haqlarına və azad olmaq hüququna malikdir". Bu, ölkəmizdə insan hüquqları sahəsində bütün qanunverci aktların əsasında dayanır. Digər tərəfdən Azərbaycan 2001-ci ildə "İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında" Avropa Konvensiyasına qoşulmaqla bu Konvensiya Konstitusiyamızın 148-ci maddəsinə müvafiq olaraq milli qanunvericiliyin tərkib hissəsinə çevrilib.

O da məlumdur ki, İkinci Dünya müharibəsindən sonrakı dövrdə milli, regional və beynəlxalq hüquq sistemində müəyyən edilmiş prinsiplər, ilk növbədə, insan hüquq və azadlıqlarının təbii, ayrılmaz dəyərlər kimi tanınması, onların daxili və beynəlxalq hüquq sistemində prioritet olması, daha sonra qanunların mənasını, məzmununu və tətbiqini, hakimiyyətin bütün qollarının fəaliyyətini müəyyən edir. Bunlar dümokrtaik ölkələrdə olduğu kimi Azərbaycanda da insan və vətəndaş hüquq və azadlıqlarının birbaşa fəaliyyətinə dair Konstitusiya və beynəlxalq paktlar səviyyəsində möhkəmləndirilir. Bu zaman fərdin beynəlxalq hüquq münasibətlərinin subyekti kimi tanınması Azərbaycanda qeyd edilən sahədə əldə olunan ən mühüm nailiyyətlərdən biri hesab olunur. Ölkəmizdə insan hüquq və azadlıqlarının müdafiəsi sistemində dövlət qeyri-məhkəmə müdafiəsi institutlarını, yerli özünüidarəetmə orqanlarını, məhkəmə sistemini, qeyri-hökumət hüquq müdafiə təşkilatlarını ayırmaq olar. Bundan əlavə, insan hüquqlarının müdafiəsi üzrə beynəlxalq sistem mövcuddur. Onlardan bəzi əsas olanları nəzərdən keçirək. Hakimiyyət orqanlarının fəaliyyətinin ümumi istiqaməti insanın hüquq və azadlıqlarına riayət edilməsinin, qorunmasının dövlətin vəzifəsi olması barədə Konstitusiya müddəası ilə müəyyən edilir. Azərbaycan vətəndaşları müvafiq hakimiyyət qurumlarına şəxsən müraciət etmək, dövlət orqanlarına və yerli özünüidarəetmə orqanlarına fərdi və kollektiv müraciətlər göndərmək hüququna malikdirlər. Ölkə qanunvericiliyinə uyğun olaraq, dövlət və yerli özünüidarəetmə orqanları vətəndaşların şikayətlərinə baxılması işinin vəziyyətini sistematik olaraq yoxlamalıdırlar. Azərbaycan prezidenti Konstitusiyanın təminatçısı kimi insan hüquq və azadlıqlarının təminatçısı kimi çıxış edir. Amma bu, həm də qanunvericilik fəaliyyətində iştirakla həyata keçirilir. Yeri gəlmişkən qeyd edək ki, Azərbaycan prezidenti İlham Əliyevin 18 iyun 2007-ci il tarixli sərəncamı ilə hər il iyunun 18-i ölkəmizdə İnsan Hüquqları Günü kimi qeyd olunur.

**İnsan hüquqları sahəsində mütərəqqi ideyaların tətbiqi prioritetdir**

Azərbaycan insan, vətəndaş hüquq və azadlıqlarını beynəlxalq hüququn hamı tərəfindən tanınmış prinsip və normalarına, Konstitusiyasına uyğun olaraq tanıyır və təmin edir. Burada bir daha təsbit edilir ki, əsas insan hüquq və azadlıqları ayrılmazdır və doğulandan hər kəsə məxsusdur. Amma insan və vətəndaş hüquq və azadlıqlarının həyata keçirilməsi digər şəxslərin hüquq və azadlıqlarını pozmamalıdır.

Ölkəmizdə qanunvericiliyə müvafiq olaraq insan hüquq və azadlıqları bilavasitə tətbiq edilir. Onlar qanunların mənasını, məzmununu və tətbiqini, qanunvericilik və icra hakimiyyəti, yerli özünüidarəetmə orqanlarının fəaliyyətini müəyyən edir və ədalət mühakiməsi ilə təmin olunurlar. Dövlət cinsindən, irqindən, milliyyətindən, dilindən, mənşəyindən, əmlak və rəsmi vəziyyətindən, yaşayış yerindən, dinə münasibətindən, əqidəsindən, ictimai birliklərə üzvlüyündən, digər hallardan asılı olmayaraq insan hüquq və azadlıqlarının bərabərliyinə təminat verir. Sosial, irqi, milli, dil və ya dini mənsubiyyətinə görə vətəndaşların hüquqlarının hər hansı formada məhdudlaşdırılması qadağandır. Bütün bunlar bir daha göstərir ki, Azərbaycanın müasir inkişaf dövründə hüquqi dövlət quruculuğu və insan hüquqlarının müdafiəsi sahəsində səylərin gücləndirilməsi dövlət siyasətinin əsasını təşkil edir. Əhalinin müxtəlif qruplarının hüquqi maarifləndirilməsi, onların hüquqi düşüncə və mədəniyyətinin inkişaf etdirilməsi bu fonda xüsusi diqqət mərkəzində yer alır. Eləcə də pozulmuş hüquqların bərpası, demokratik-hüquqi dövlətin və vətəndaş cəmiyyətinin qurulması prosesinə təkan verən təşəbbüslər, insan hüquqları sahəsində maarifləndirmə işinin təşkili məqsədilə mütərəqqi ideyaların axtarışı və tətbiqinə də ölkəmizdə xüsusi diqqət olunur. Vətəndaşların maraqlarına uyğun dövlət səviyyəsində atılan bütün addımlar insan hüquqlarına ali dəyər verilməsinin göstəricisidir. Bu da Azərbaycanı insan hüquqlarının ən yaxşı qorunduğu ölkələr cərgəsinə daxil edir.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**